# Azərbaycan kinosunda folklor örnəklərinin bədii-estetik həyatı



*Maarif XALIQOV,*
*tarix üzrə fəlsəfə doktoru*

Folklor örnəklərinin Azərbaycan kino dilində özünəməxsus bədii- estetik həyatı var. Mühüm bədii-estetik factor kimi, kino personajlarının nitq aktlarının görümlü yerlərində istifadə olunan folklor örnəkləri gözlənilməz əsrarəngizliklərlə çıxış edir və onların nitqinin bəzəyinə çevrilir, tamaşaçı və dinləyicinin bədii zövqünü oxşayır, personajların nitq aktlarından süzüldükcə heç zaman tükənib qurtarmaq bilmir. Bu tükənməz mənəvi sərvətimizə xalq müdrikliyinin parlaq ifadəçiləri kimi personajların fikir və duyğularına bədii-estetik hərarət verir, nitq aktlarına folklor ədəbiyyatımızın təkrarsız şərh-şirəsini, əsrarərəngiz ətrini gətirir. Nitq arenasında folklor nümunələrinin yeni-yeni obraz yaratma potensiyası, obrazlı mahiyyəti aşkarlanır ki, onların araşdırılması problemin aktuallığını və vacibliyini kifayət qədər şərtləndirir.

Azərbaycan kinolarında oxşamalara geniş yer verilmişdir. Oxşamalarda daha çox əyləndirmə, oxşatma başlıca xarakter kəsb edir və ifa prosesində onların ritm və ahəng səslənmələri, ifa tərzi bir növ laylalar kimidir və buna görə də bu növdən olan folklor örnəklərini nitqin laylalar tipi kimi də səciyyələndirmək olar. 1963-cü ildə S.Rəhmanın ssenari müəllifliyi və A.İsgəndərovun rejissorluğu ilə çəkilmiş "Əhməd haradadır?" bədii filmində Əhmədin atası Şirin və anası Nərgiz gələcək nəvələrini böyük sevinclə, canlı bir dillə, oynaq tərzdə oxşayırlar. Əhmədin atası Şirin oxuyur: Əhmədin anası Nərgiz oxuyur:

Ay gülüm, ay gülüm, ay gülümsən,
Babanın, nənənin nəvəsi,
Dünyada bircə, bircə dənəsən.
Güldən ətirlidir nəfəsi.

Gəl mənim gözümün qarası,
Qurbanam mən bunun boyuna,
Oğlumun oğlan balası.
Qoy ellər yığılsın toyuna.

Atalar sözü və məsələlər min illərin sınağından çıxmış müdrik kəlamlar olub, formaca kiçik, məzmunca, mənaca geniş diapazona malik folklor örnəklərindəndir və kinolarda da personajların nitq aktlarının daha canlı, təsirli, sərrast olması üçün yeri gəldikcə bu növdən olan folklor nümunələrindən istifadə olunur. "Əhməd haradadır?" bədii filmində bu növdən olan folklor nümunələrinə kifayət qədər və komik, yumoristik səpgidə yer verilmişdir:

Şirin arvadı Nərgizə deyir:

- Çətini ayağını kəndirə bağlayana qədərdir. Arvad, kişini evə bağlayan kəndirdir.

Atası Əhmədə evlənməyi təklif etdikdə etirazını bildirən oğlu ona deyir:

- Qız evində toydur, oğlan evinin xəbəri yoxdur.

Qızı Ceyranı yük maşınının kuzasına çıxaran Nərgiz xala sürücü Əhmədə deyir:

- Gəl daşı ətəyindən tök, gedək.

Sürdüyü yük maşınını saxlayan Nərgiz sürücü Əhmədə deyir:

- Sür gedək.Yolçu yolda gərək.

Tiflisdən Bakıya gələn Yusif onu qarşılayan həyat yoldaşı Ofeliyaya deyir:

- Eşqində gərək bülbül olaydım,
Mərmər sinən üstündə qızıl bir gül olaydım.
Zülfün tək uzandıqca öpəydim ayağından,
Sən seyrə çıxan yerdə dönüb sünbül olaydım.

Şirin Bakıda oğlu Əhmədin axtarışlarının nəticə vermədiyini bildirdikdə arvadı Nərgiz ona deyir:

- Axtaran tapar.

Əhməd Leylanı yola salmaq üçün getməyə hazırlaşarkən dostları onun hara getdiyini soruşurlar. Əhməd deyir:

- Ayağım hara, başım da ora.

Əhmədin valideynləri oğlanlarının hara getdiyini dostlarından soruşduqda "saqqal Ramiz" deyir:

- Dedi ki, başım hara, ayağım da ora.

Laylalar, oxşamalar dünyaya göz açmış körpələrimizin ilk beşik nəğmə- ləridir. Bu folklor örnəkləri hələ dünyaya yenicə gəlmiş, dil açmamış körpələrimiz üçün ahəngdar bir ritmlə analar tərəfindən söylənilir. Xalalar, bibilər, nənələr tərəfindən söylənilən layla, oxşamalarla uşaq folklorumuzun yeni-yeni nümunələri yaradılmış, onun mövzu mündəricəsi genişləndirilmişdir.

1960-cı ildə M.Hüseynin ssenarisi əsasında və T.Kazımovun rejissorluğu ilə çəkilmiş "Səhər" bədii filmində ana öz körpəsinə xüsusi ahəng və ritmlə layla çalır və laylada nurlu səhərin, azad gələcəyin gəlməsi təlqin olunur ki, bu da nəinki körpə fidanların, eyni zamanda böyüklərin də qəlbini riqqətə və ehtirasa gətirir.

Gecə keçər, gündüz gələr, anan qurban,
Səhər gələr, azad gələr,
Anan qurban, körpə balam,
Lay-lay, yat mənim əzizim

Bayatı xalqımızın yaratdığı folklor ədəbiyyatının yığcam, lakonik, lirik, gözəl səslənən, geniş məna və məzmun ifadə edən papulyar janrlarından biri olub, ta qədimdən onun əsasında saysız-hesabsız mahnılar qoşulmuş, xalq musiqiləri yaradılmışdır. Ürək, qəlb, sevgi, məhəbbət çırpıntıları bayatı üzərində oxunan mahnılarda olduqca gözəl və əzəmətli bir şəkildə səslənir və belə mahnıların birinə 1955-ci ildə çəkilmiş ( ssenari müəllifləri Ə.Qulubəyov, H.Rozina; rejissoru T.Tağızadə) "Görüş" bədii filmində rast gəlirik: Ədilbəy gecə küçədə gedərkən oxuyur:

Əzizim meşələrdə,
Yarım gəlib çıxmadı,
Göz yaşım şüşələrdə,
Qalmışam küçələrdə.

Yarandığı dövrlərdən üzü bəri min illərdir yol keçən atalar sözü və məsələlərdə məcazlaşma keyfiyyəti əsas olmuş, Azərbaycan kinolarında da rəhgarəng personajların nitqində həmin keyfiyyət və xüsusiyyətlər təzahür edir. Bu cəhətdən yanaşdıqda, 1957-ci ildə çəkilmiş (ssenari müəllifi H.Seyidbəyli; rejissoru L.Səfərov) "Qızmar günəş altında" bədii filmində işlənilən atalar sözü və məsələlərin əksəriyyəti məcazi xüsusiyyət kəsb edərək, tərbiyəedicilik istiqamət-lərinə yönəlmişdir:

"Ağacdan baxana mənzil yaxın görünər", "Quş uçsa qanad salar, qatır getsə dırnaq", "Əvvəl arxı hoppan, sonra hop de", "Atası çıxan dağa oğul da çıxar", "Saqqalım yoxdur, sözüm ötmür", "Bir əldə iki qarpız tutmaq olmaz", "Özgəyə quyu qazan özü düşər", "Gülü istəyən tikanlara dözər", "Mıs-mıs deyincə, Mustafa de də", "Oxu atıb yayını gizlətmə", "Özgə atına minən tez düşər", "Qorxan gözə çöp düşər", "Zərərin yarısından qayıtmaq da bir qazancdır".

1959-cu ildə İ.Qasımovun ssenarisi və T.Tağızadənin rejissorluğu ilə çəkilmiş "Əsl dost" bədii filminin personajlarının nitqində işlədilmiş atalar sözü və məsələlərin ideya və məzmun istiqamətləri rəngarəngdir. Bunların məzmun və mündəricəsi daha çox xalqın dünyagörüşünü, təşəkkülünü, çətin sınaqlardan çıxmaq, dost, qonşu, qohum sindromları ilə bağlı olaraq işlədilmiş və aşağıdakı xalq deyim-duyğularını əhatə edir: "Ağa dedi sür dərəyə, sür dərəyə", "Qonaq evin yaraşığıdır", "Yaxşı qonşu qardaşdan da artıqdır", "Cücəni payızda sayarlar", "Könlü balıq istəyən özünü suya verər".

Azərbaycan kinolarında ssenari müəlliflərinin ən çox müraciət etdikləri folklor örnəkləri içərisində forma və strukturca dəyişdirilmiş məsələlər mühüm rol oynayır və bu baxımdan 1964-cü ildə A.Quliyevin və N.Nəcəfovun ssenarisi əsasında, reyissor H.Şərifovun çəkdiyi "Ulduz" bədii filmində "Bir güllə ilə iki dovşanı yerə sərmək" məsələsinin strukturu dəyişdirilərək aşağıdakı formada verilmişdir:

- Bir güllə ilə iki canavarı yanı üstə yıxıblar.

"Ulduz" bədii filmində Azərbaycan toylarında ənənə şəklini almış "bəylə gəlinin tərifi" mərasimi də folklor örnəklərinə ən gözəl misal ola bilər və bu ənənənin kökləri tarixin qədim çağlarına gedib çıxır.

Filmdə kənddə Bəxtiyarla Ulduzun keçirilən toy mərasimi çox gözəl verilib. Bəylə gəlin toyxanaya daxil olurlar. Məhəmməd oxuyur:

Oğlanların oğlanısan,
Bir tellini sən ovlamısan.
Gözəl-göyçək ovlamısan,
Ay bəy, toyun mübarək.

Züleyxa oxuyur:

Qızımız dünyada təkdir,
Yanaqları ağ çiçəkdir, ay çiçəkdir.

Dağ kultu ilə bağlı əfsanə və rəvayətlərə Azərbaycan kinolarında bəzi hallarda tuş oluruq və epik növün ilkin janrlarından biri olan rəvayətlərdə xalq təbiət varlıqlarından sayılan başı qarlı, möhtəşəm, əzəmətlilik, ucalıq rəmzi olan dağların həqiqi mahiyyətini, mifoloji cəhətlərini dərk etmək təşəbbüsünə səy göstərdiyi antik dövrdən onunla bağlı əfsanələr, rəvayətlər yaratmağa başlamışlar. Rəvayətlərdə xalqın real dünyagörüşü, həyatı, inam və inancları öz əksini tapmışdır və belə rəvayətlərdən birinə 1967-ci ildə Ə.Qurbanovun ssenarisi və K.Rüstəmbəyovun rejissorluğu əsasında çəkilmiş "Dağlarda döyüş" bədii filmində rast gəlirik. Həmin rəvayət qısa və lakonik şəkildə söylənilmiş, mifoloji cəhət daha qabarıq şəkildə diqqətə çatdırılmışdır: Sərhəd bölgəsində hərbiçilərlə maşında gedən serjant Fərrux ətrafdakı qayalıqları onlara göstərərək deyir:

- Yerlilər bura Tilsimli dağ deyirlər. Rəvayətə görə Ağ div qəzəblənib bu yerlərin hamısını sehrləmiş, adamları, heyvanları da vahiməli qayalara çevirmişdir.

"Dağlarda döyüş" bədii filmində personajların aktlarında işlədilən atalar sözü və məsələlərin əksəriyyəti, demək olar ki, psixosemotik maiyyətlidir, çünki onlarda fikri, mühakiməni tam ifadə etmək,ümumiləşdirmək qabiliyyəti mövcuddur və bu aspektdən aşağıdakı müdrik kəlamlar olduqca səciyyəvidir: Sərhədi pozan atası serjant Fərruxa pul təklif edir. Fərruxun pulu götürmədiyini görəndə ona deyir:

- Acıqlı başda ağıl olmaz.

Fərruxdan narazı olan ferma müdiri Qəmbər sərhəd bölməsinin rəisinə deyir ki, sərhədi pozan Fərruxun atasıdır.Fikrini belə yekunlaşdırır:

- Ot kökü üstündə bitər.

Qaçaq malı çayçı Feyziyə verən şəxs onun qorxduğunu görərək deyir:

- Qorxan gözə çöp düşər.

Daha sonra Feyziyə pul verərək deyir:

- Allah saxlayana heç nə olmaz.

Ferma müdiri Qəmbər qızı Hicranın Fərruxla görüşdüyünü həyat yoldaşına deyir. Həyat yoldaşı Fərruxun çox mərifətli oğlan olduğunu bildirdikdə Qəmbər qəzəblənərək ona deyir:

- Suyun lal axanı, adamın yerə baxanı.

Qarğışlar Azərbaycan folklorunun ən qədim janrlarından biri olub, tarixən xalqın kinini, nifrətini, qəzəbini olduqca dolğun şəkildə əks etdirmək gücünə malik olmuşdur.Bu janrın orijinal nümunələrindən kino dilində istifadə edilmişdir. 1968-ci ildə A.Axundovanın ssenarisi, Ş.Mahmudovun rejissorluğu ilə çəkilmiş "Şərikli çörək" bədii filmində verilmiş aşağıdakı səhnə fikrimizi təsdiq edir:

Kiçik bir oğlan uşağı əlində yağlı çörəklə həyətə düşür və daşın üzərində oturaraq onu iştahla yeməyə başlayır. Ona paxıllıqla baxan uşaqlar birlikdə oxuyurlar:

Çörək ver, özü çıxsın,
Verməyənin gözü çıxsın.

Milli oyunlar uşaq folklorumuzun ən gözəl və dəyərli nümunələrindən hesab olunur və bu oyunlar qədim azərbaycanlıların müxtəlif məqsədlər üçün təşkil etdikləri mərasimlərdə icra edilmişdir.Xalqımızın qan yaddaşında və zaman-zaman icra edilərək çağdaş dövrümüzə gəlib çıxanları da var, unudulanları da az deyildir.

Azərbaycan kinoları bu milli oyunları yaşatmaq üçün ən dəyərli vasitələrdən biridir." Şərikli çörək" bədii filmində uşaqlar həyətdə "Aşıq-aşıq" oyununu həyata keçirərək yarışırlar. Buna "Çilədi" oyunu da deyirdilər.

***(Davamı 16-cı səhifədə)***

*(Əvvəli 13-ci səhifədə)*

Mən 1961-1965-ci illərdə Göyçay şəhərindəki S.Vurğun adına 11 saylı internat məktəbində oxuduğum zaman bu öyun növü bizim ən çox sevdiyimiz oyun idi. Onu müəllimlərdən xəlvət oynayardıq. Çünki müəllimlərimiz bizim bu oyunla məşğul olmağımıza imkan vermirdilər. Bu yarışda həmişə qalib sinif yoldaşımız Yadigar idi.

Personajların nitq aktlarında bəzən atalar sözü və məsələlərində ixtisar etmələr müşahidə olunur və həmin yarımçıqlığı tamaşaçının ixtiyarına buraxır, dinləyici və ya tamaşaçı həmin yarımçığlığı öz məntiqi təfəkküründə asanlıqla bərpa edə bilir. 1969-cu ildə çəkilmiş "Bizim Cəbiş müəllim" bədii filmində (ssenaristi M.İbrahimbəyov, rejissoru H.Seyidbəyli) Makedon həmyaşıdı olan qonşusu Namiqə narazılığını belə bildirir:

- Sənə güvəndiyim dağlar...

Azərbaycan xalqının mifik, tarixi, çağdaş təfəkküründə su anlayışı müqəddəslik, duruluq, həyat, yaşamaq, dirilik rəmzi kimi reallaşdırılmışdır. Ən qədim dövrlərdən uzaq bir səfərə, çətin bir iş dalınca yollanan şəxsin arxasınca su atmışlar ki, işləri uğurlu alınsın. Makedonu hərbi xidmətə çağırırlar. Makedon evdən çıxaraq yola düşərkən qonşuları Sona xala onun arxasınca su ataraq anasına deyir:

- Su aydınlıqdır, atdım ki, balan salamat qayıtsın!

Ömür konsepti Azərbaycan bayatılarının əksər məqamlarda motivinə çevrilərək insanın yaşanmış və yaşanacaq həyatı təsvir-tərənnüm müstəvisinə gətirilmiş, fəlsəfi məzmunlu olduqca yüksək liriklik kəsb edən folklor örnəkləri yaşadılmış və onlardan birindən 1971-ci ildə çəkilmiş "Gün keçdi" bədii filmində (ssenariti A.Rzayev, rejissoru A.Babayev) uğurla, yerli-yerində faydalanılmışdır:

Oqtay Əsmərə deyir:

- Keçmişlə yaşamaq olmaz, gərək bu günlə yaşayıb, gələcəyə inanasan.

Əziziyəm bir də mən,
Ömür keçdi, gün keçdi,
Doldur içim bir də mən,
Cavan olmaram bir də mən.

Azərbaycan kinolarına ssenari yazan müəlliflər yeri gəldikcə xalqımızın min illərdir ki, tapındığı inam və inanan clardan da yan keçməmiş və onlar da personajların nitq aktlarında etnoqrafik cizgilər kimi çıxış etmişlər.

Gənc Əsmər Oqtaya deyir:

- Əgər siqaretin bir tərəfi yanırsa, demək kimsə sənin üçün yaman darıxır.

- Əgər qutuda bir kibrit çöpü qalırsa, deməli biz evlənəcəyik.

Antikvar mağazada ona tanış olmayan əşyanı görən Əsmər satıcıdan soruşur ki, o nədir? Satıcı ona deyir:

- Durna çırağını dağlarda yandırırlar ki, durnalar yolu azmasınlar.

Mağazadan çıxarkən Əsmər Oqtaydan soruşur ki, yəni bütün durnalar bu çırağı görə bilirlər? Oqtay Əsmərə deyir ki, bütün bunların hamısı əfsanədir, nağıldır. Bütün bunları cadu düzəldən uydurur ki, malın qiymətini qaldıra bilsin.

Azərbaycan kinolarının çoxunu xalq mahnılarısız təsəvvür etmək qeyri-mümkündür. Xalq mahnıları tarixin ən qədim dövrlərindən yaradılmış, söz və məntiqi ahənginin vəhdətindən hörüb düzəldilən gözəl bir çələng, möhtəşəm sənət əsərləridir. Mahnı xalqın qəlbi, hiss düşüncələri, mənəviyyatı, daxili aləminin güzgüsüdür. Dərviş mahnıları tarixin müəyyən dövrlərində yaranmış və xalq kütlələri arasında geniş yayılmışdır. Bu növdən olan mahnılara "Nəsimi" bədii filmində müəyyən qədər rast gəlirik. 1976-cı ildə çəkilmiş "Dərviş Parisi partladır" (ssenariti Ə.-Qulubəyov, rejissoru Ş.Mahmubəyov) bədii filmində yolda uzunqulağın belində gedən Dərviş Məstəli şah oxuyur:

Mən bir köhnə dərvişəm,
cəhənnəmdən gəlmişəm,
Zəmanəni dolayıb,
barmağıma sərmişəm...

Azərbaycan bədii filmlərində aşıq musiqisinə də geniş yer verilmişdir. Hətəmxan ağa Müsyö Jordanın Parisə qayıtması ilə əlaqədar evində qonaqlıq verir. Aşıq oxuyur:

Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil.

Bu problemlə bağlı müəllifin ilk məqaləsi - "Azərbaycan kinolarında folklor örnəklərindən istifadənin bədii-estetik aktuallığındakı rolu "-2023-cü ildə "Linqivistika problemləri" Beynəlxalq elmi jurnalının 1-ci nömrəsində nəşr edilmişdir. Həmin məqalədə Azərbaycanfilm tərəfindən çəkilmiş 7 kinoda öz əksini tapmış folklor nümunələri araşdırılmışdır. Bu məqalə isə 11 Azərbaycan bədii filminin materialları əsasında hazırlanmışdır. Göründüyü kimi, bu problemlə bağlı Azərbaycan bədii filmlərində kifayət qədər material var. Fikrimizcə, onların ətraflı öyrənilməsi yerinə düşərdi.